**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin**

**QƏRARI**

**19/1**

**Bakı şəhəri** **30 iyun 2021-ci il**

**Azəbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2020-ci il 24 aprel tarixli 16/1-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Koronavirus (COVID-19) pandemiyası şəraitində kredit təşkilatlarının fəaliyyətinin müvəqqəti tənzimlənməsi Qaydası"nda dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 4 aprel tarixli 135s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Tədbirlər Planı"nın III hissəsinin 3-cü bəndinə uyğun olaraq koronavirus (COVID-19) pandemiyasının Azərbaycan Respublikasının bank sektoruna ehtimal olunan mənfi təsirlərinin azaldılmasına yönəldilmiş requlyativ güzəşt və tələblərin tətbiq edilməsi məqsədilə "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.0.17-ci maddəsinə əsasən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2020-ci il 24 aprel tarixli 16/1-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Koronavirus (COVID-19) pandemiyası şəraitində kredit təşkilatlarının fəaliyyətinin müvəqqəti tənzimlənməsi Qaydası"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).
2. Hüquq departamentinə (R.Məlikova) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

**Mərkəzi Bankın sədri** **Elman Rüstəmov**

"Təsdiq edilmişdir"
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar 19/1

30 iyun 2021-ci il

**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2020-ci il 24 aprel tarixli 16/1-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Koronavirus (COVID-19) pandemiyası şəraitində kredit təşkilatlarının fəaliyyətinin müvəqqəti tənzimlənməsi Qaydası"nda dəyişikliklər**

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2020-ci il 24 aprel tarixli 16/1-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Koronavirus (COVID-19) pandemiyası şəraitində kredit təşkilatlarının fəaliyyətinin müvəqqəti tənzimlənməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4.3-cü və 6.1-ci bəndlərdə "01 iyul 2021-ci il" sözləri "01 yanvar 2022-ci il" sözləri ilə əvəz edilsin;
2. 5-ci hissədə "01 iyul 2021-ci il" sözləri "01 oktyabr 2021-ci il" sözləri ilə əvəz edilsin.